# Azərbaycan ailəsində ailədaxili münasibətlər: validеyn-uşaq ünsiyyəti

**Nurəngiz Rzayeva**
*ADPU-nun Ümumi psixologiya kafedrasının dosenti*
**E-mail:** nurengiz.rzayeva@gmail.com

**Rəyçilər:** psixol.ü.f.d., dos. Ç.Q. Verdiyeva,
psixol.ü.f.d., dos. Y.B. Əskərova

**Açar sözlər:** ailə, ailədaxili münasibətlər, güzəran psixologiyası, dəyərlər, uşaqlar, şəxsiyyət, davranış

**Ключевые слова:** семья, внутрисемейные отношение, житейская психология, ценности, детей, личность, поведение

**Key words:** family, parent-child relationship life psychology, values, child, personality, behavior

Ailə münasibətlərinin kökü qədimdir. Cəmiyyətin siniflərə parçalandığı gündən bu məsələlər meydana çıxmış və insanları düşündürmüşdür. Hər dövrün özünəməxsus etalon və stereotipləri mövcuddur. Ailə məsələləri bunların içərisində önəmlidir. Cəmiyyətin, dövlətin, tayfaların təsnifatında, deyimlərində ailə dəyərləri həmişə müqəddəsliyi və lazımlılığı ilə seçimli olub.

Tədqiqatlarda qeyd olunur ki, "Ailə bir-birinə məişət birliyi və qarşılıqlı mənəvi məsuliyyətlə bağlı olan adamların nikah və qan qohumluğuna əsaslanan birliyidir". Bu birlikdə münasibətlərin hansı səviyyədə inkişafı ailənin hazırki və gələcək durumunu şərtləndirən əsas faktordur. Bu kontekstdə münasibətlər, dəyərlər xalqın təfəkkür süzgəcindən keçərək bu günə kimi öz lazımlılığını itirməmiş və mədəniyyətlərarası əlaqələrin geniş vüsət aldığı müasir dövrdə tədqiq olunmasına zərurət daha da çox artmışdır.

T.Louson və C.Herrodun lüğət–sorğu kitabçasında ailəni belə səciyyələndirirlər: "Ailə ümumi qəbul edilmiş anlayışda qan qohumluğuna və ya nikah əlaqələri ilə bizim bağlandığımız bütün adamlardır". Fransız yazıçısı Jül Renar qerd edir ki, "Həyat bir əfsanə, ailə isə sevgi ilə yogrulmuş bir nağıldır" Azərbaycan xalqının psixologiyasında, dəyərlər sistemində ailə və ailədaxılı münasibətlər aparıcı qüvvədir. Zamanın təfəkkür süzgəcindən bu günə kimi gələn və aktual səslənən ailə və onun formalaşması məsələləri Azərbaycan xalqının deyimlərində həmişə ülvi və müqəddəs ölçülərlə dəyərləndirilmişdir. Xalqımız ailəni müqəddəs ocaq sanmışdır. Prof. Ə.Ə. Əlizadə bu məsələləri tədqiqatlarında xüsusi təhlil etmiş və ailə dəyərlərinin ülviliyini ön planda tutmuşdur.

O, Azərbaycan ailəsinin özünəməxsus spesifik çalarlarını açıqlamış, bu kontekstdə qadının bənzərsiz rola malik olduğunu dəfələrlə vurğulamışdır. Bu xüsusda qeyd etmişdir ki, "Ailədə emosional şəxsi münasibətlərin episentri məhz qadının möcüzəli həyatı ilə bağlıdır.... ailənin psixoloji havası, ilk növbədə evin xanımının ılıq nəfəsi-sirli-sehrli qadın qayğılarından qaynaqlanır. Bu fəlsəfədə qadının əzəməti maestro əzəməti kimi təsvir olunur" (4, s. 78) Şəxsiyyətin təşəkkülündə ailənin rolunu başlıca qeyd etmək lazımdır. İki nəslin, soyun qovşağında yeni ailə əmələ gəlir. Ailə spesifik çalarlarla xarakterizə olunan bütöv bir konsepsiyadır. Bu konsepsiyanın əsasında təbii ki, ailədaxili münasibətlər durur.

Şəxsiyyətlərarası münasibətlər kontekstində ailədaxili münasibətlərin öyrənilməsi, tənzimlənməsi və münasibətlərin sağlam psixoloji əsaslar üzərində qurulması məsələləri əlbəttə ki, hər bir ailənin möhkəmliyi üçün zəruridir. Ailənin əsas məqsədi qalib gəlmək, özünü qorumaq, ailə üzvlərinin əsas tələbatını ödəyə bilmək və nəslin davamını təmin etməkdir. “Xalqımızın çağdaş dünya ilə çulğalaşdığı, milli mentalitet cəhətdən bir-birindən fərqli xalqlarla inteqrasiya olunduğu, kütləvi informasiya vasitələrinin həyatımıza daha çox daxil olduğu müasir dövrdə ailə, dövlət və bəşəriyyət üçün əxlaqın saflaşdırılması ən vacib problemlərdən biridir” (5, s. 3)

Problemlərin həlli kontekstində qeyd etmək lazımdır ki, yeniləşmə və qloballaşma şəraitində informasiyaların sürətli inkişafı, kütləvi kommunikasiya və təbliğatın genişlənməsi, cəmiyyətdə özünü göstərən bu və ya digər proseslər ailədaxili məsələlərə də təsir göstərir Ailədaxili münasibətlərin sağlam psixoloji əsaslar üzərində, qarşılıqlı hörmət və məhəbbət əsasında qurulması cəmiyyətin inkişafını şərtləndirən amillərdir. Şəxsiyyətlərarası münasibətlər kontekstində ailə, qadın, valideynlik, övladlıq əlaqələri sosial-psixoloji aspektdə tədqiqat obyektinə çevrilməklə, göstərilən birinci tip amilə üstünlük verilmişdir. Bu kontekstdə ailədə uşaqların tərbiyəsində kökə bağlılıq, keçmişin yaxşı xüsusiyyətlərinin təcəssümü üçün psixoloji materiallar önəmlidir.

Xalqımızın qədim və dəyərli dastanı olan “Kitabi-Dədə Qorqud”da əksini tapan etnik-psixoloji xüsusiyyətlər ailədaxili münasibətlərin formalaşması və bu zəmində uşaqların tərbiyəsində zəngin məxəzdir. Ailə münasibətlərinin tipoloji təhlili maarifçilərin əsərlərində də geniş vüsət almışdır. Mütəffəkkirlərin yaradıcılığına nəzər saldıqda da görünür ki, onlar tərbiyə və tərəqqi işində ailə münasibətlərinə diqqət yetirmişlər. Ailənin möhkəmləndirilməsini cəmiyyətin sağlam əsaslar, mütərəqqi qaydalar üzrə inkişafı üçün zəruri hesab etmişlər. F.Köçərli bu xüsusda yazırdı: “Ər və övrət (arvad) ...bir bədənin iki şaqqası və müvafiq hissəsi olduqlarına görə bunların arasında olan yekdillik, ülfət, məhəbbət və mənəvi rəqabət gərəkdir. Heç bir kəsin mabeynində mülahizə olunmasın... (4, s. 108) Ailənin psixoloji mövqeyi, uşaqların tərbiyəsi ərin və arvadın münasibətləri ilə şərtlənir. Azərbaycan ailəsinə həsr edilmiş tədqiqatlarda qeyd edilir ki, ailə-qadın və kişinin qarşılıqlı meyli və istəyi ilə qurulan könüllü ittifaqdır. Onların arasında formalaşan münasibətləri, insanın insana təbii münasibəti kimi qiymətləndirmək olar. Bu münasibətlər bir-birilə məişət birliyi və qarşılıqlı mənəviyyatla bağlı olan adamların nikah və qan qohumluğuna əsaslanır. Professor Ə.Ə.Əlizadə haqlı olaraq qeyd edir ki, “Ailə münasibətlərinin əsasını ər və arvad münasibətləri təşkil edir. Onlar ailənin qoşa qanadlarıdır”.

Ailədaxili münasibətlər kontekstində valideynlərin uşaqları ilə münasibəti də önəmli əhəmiyyət kəsb edir. Bu məsələ hələ lap kiçik yaşlarından, məktəbəqədər dövrdən başlayır. Uşaqların şəxsiyyətinin formalaşmasında, psixi inkişafında, ətrafdakılarla rəftar və davranışında, idrak fəallığının inkişafında valideyn-övlad münasibətləri mühüm rol oynayır. Bu münasibətlər uşağın öz yerini, ailədəki rolunu müəyyənləşdirməkdə və özünü dərk etməsində, qabiliyyət və bacarıqlarını inkişaf etdirməkdə önəmlidir. Ailə uşaqların mənəvi hisslərə yiyələnmələrinin, sosial davranış normalarını mənimsəmələrinin mənbəyidir. İstər xarici ölkə, istərsə də Azərbaycan psixoloq və pedaqoqları bu problemə xüsusi diqqət yetirmiş və xeyli tədqiqatlar aparmışlar. M.S.Lisina yaşlılarla ünsiyyət məsələlərinə toxunaraq uşağın sosiallığının və ünsiyyətliliyinin bu münasibətlərdən asılılığını qeyd edir. A.S.Makarenko xoşbəxt uşaqları xoşbəxt valideynlərin əhatəsində olmaları ilə səciyyələndirir. T.A.Repina ailədə uşaqların sayının təsirini vurğulayaraq qeyd etmişdir ki, bu münasibətlərdə vacib olan başqasının halına yanmaq, eqoistlikdən, aqressivlikdən uzaq olmağa imkan verir. Prof, Ə.S.

Bayramov "ailə mədəniyyəti" anlayışına xüsusi yer ayırır və bunu uşaq şəxsiyyətinin inkişafına təsir göstərən əsas faktor kimi qeyd edir. Prof. Ə.Ə. Əlizadə ünsiyyət prosesində nənə və babaların, əmi, dayı, xala və b. özünəməxsus rolunu qeyd edir. Prof. R.İ. Əliyev uşaqlara layiqli və təvazökar ad seçilib qoyulmagı məsləhət bilir.

Ailədaxili və onun ətrafındakı psixoloji iqlim uşaqların şəxsiyyətinin formalaşmasında, eyni zamanda ünsiyyət mədəniyyətinin inkişafında prioritet istiqamətlərdən biridir. Uşağın ailədəki mövqeyi onun münasibətlər sistemində tutduğu yer, digər tərəfdən fərdi xüsusiyyətləri və münasibəti eyni təsir gücünə malikdir. Ailə üzvləri ilə ünsiyyətdə uşaq formalaşır. Gələcək şəxsiyyətin inkişafının özülü bəzən həmin söhbətlərlə qoyulur. Valideynlərlə ünsiyyətdə uşaq bir çox biliklərə yiyələnməklə, özünü və başqalarını qiymətləndirməyi bacarır. Bu münasibətlər özlərinin emosional çalarları ilə əvəzsizdir. Əlbəttə bu münasibətlərdə ailənin psixoloji iqlimi, ailə mədəniyyəti, psixoloji uyuşma, təhsil, ixtiyar və hüquqda bir-birinə müvafiqlik, və s. rolu əvəzsizdir. Bu xüsusda böyük maarifçi F.Köçərli yazırdı: "Övladın tərbiyəsi və təlimi ancaq o vədə qaydaya düşüb təbii ola bilər ki, onların vicuduna səbəb olan ata-ana həddi-kamala yetişib ağıl və fərasətdə, elm və bilikdə, ixtiyar və hüquqda bir-birinə müvafiq olalar və hər ikisi təlim və tərbiyənin yolunu kamalınca anlayalar" (6, s. 107).

Göründüyü kimi, ailədaxili ünsiyyət uşaqların şəxsiyyətinin inkişafında mühüm əhəmiyyət kəsb edir. Mütəxəssislər uşağa olan münasibətin hələ ana bətnində ikən vacibliyini vurğulayırlar. Uşaq psixikası həssas və plastikdir. Bəzən ehtiyatsız bir söz onu həyəcanlandırır. Uşaq hələ 4-5 aylığında olan zamanda anasının üzünə diqqətlə baxır, özünə olan münasibəti müəyyən etməyə başlayır. Ananın emosional vəziyyətindən asılı olaraq uşağın fəaliyyətində emosional reaksiyalar dəyişir. Uşaqların valideynləri ilə ünsiyyətə qoşula bilməmələri onların ünsiyyət tələbatının ödənilməməsinə əsas verir. Professorlar Ə.Bayramov və Ə.Əlizadə yazırlar: Ünsiyyət defisiti, adamlarla kontaktın azlığı və ya olmaması uşağın inkişafına dramatik surətdə mənfi təsir göstərir. İlk olaraq ailədən başlayan bu ünsiyyət uşağın ən ali mənəvi tələbatına çevrilir.

Ailədə valideynlərlə uşaqlar arasında ünsiyyətin 2 əsas modelini qeyd edirlər: Birinci modelə əsasən "tabeçilik" üstünlük təşkil edir. Bu prosesdə uşaqların fəallığının, təşəbbüsünün qarşısı formal vasitələrlə alınır. Bu modeldə valideyn elə zənn edir ki, tərbiyə sistemi uğurludur.

Ünsiyyətin ikinci modeli isə səmərəlidir. "Uşağın üzərində hökm etmə, onun yaşında yox, onunla birgə ol" devizinə əsaslanan bu modeldə məqsəd qarşılıqlı əməkdaşlıq, şəxsiyyət formalaşdırmaqdır. Bu da uşağın psixoloji müdafiə, fərdi xüsusiyyətlərinin nəzərə alınmasından keçir. Əməkdaşlığa əsaslanan ünsiyyət üslubu isə uşağın fikrinə hörmətlə yanaşmaqdan ibarət olur. Ailədə valideynlərin ünsiyyət üslubunun da rolu böyükdür.

Ailələrdə hər hansı ünsiyyət üslubuna daha çox üstünlük verilməsi düzgün deyil. Uşağa laqeyd münasibət nə qədər səhvdirsə, hədsiz valideyn məhəbbəti bir o qədər qorxuludur. Bu münasibətlərdə orta hədd gözlənilməlidir.

Böyüklərin uşaqlarla münasibəti, ünsiyyəti, ikitərəfli, iki eyni hüquqlu insanın ünsiyyətidir. Çox vaxt valideynlər tələb edir ki, uşaq özünü böyük kimi aparsın, eyni zamanda gözləyirlər ki, o özünü uşaq kimi aparacaq. Məntiqi baxımdan bir yerə sığmayan bu yanaşma uşağın psixi inkişafına, şəxsiyyətinin formalaşmasına mənfi təsir etməklə yanaşı, həm də onu daim daxili gərginlikdə saxlayır. Uşağın şıltaqlığı, tərsliyi, böyüklərin belə ziddiyyətli tələblərindən yaransa da, böyükləri təəccübləndirir, qəzəbləndirir. Onlar bunun səbəbini özlərində deyil, uşaqda axtarmağa başlayırlar.

Qeyd etmək lazımdır ki, uşaq xüsusi funksiyası olan insandır. O, dünyaya gəlişi ilə valideyni dialoqa çağırır, həm də bərabərhüquqlu tərəfdaş kimi. Prosesin gedişinə dərindən diqqət yetirildikdə görmək olar ki, o, əla müsahibdir. Valideynlərlə ünsiyyət zamanı uşağın münasibətində qazanılmış təcrübə sonrakı psixi inkişaf üçün əsasdır. Psixoloqlar hesab edirlər ki, ana məhəbbəti uşağın ən böyük mənəvi qidasıdır. Uşaq kasıblığı hiss edə bilər, ancaq ana məhəbbəti o qədər güclü ola bilər ki, uşağın kasıblığı və ehtiyaclarını ana unutdura bilər.

Valideynlərin uşaqlarla münasibəti uzun illər boyu formalaşır, valideynin bu münasibətə şüurlu və ya etinasız yanaşmasından asılı olmayaraq onlar müəyyən variantlardan birinə istinad edirlər. Bu variant real münasibətdə əksini tapır. Münasibətlər isə ardıcıl şəkildə inkişafın mərhələləri üzrə davam edir. Hər hansı bir problem yarandıqda isə onun səbəbini əvvəlki mərhələlərdə deyil, baş verdiyi zamanda axtarmağa çalışır. Elə hesab edir ki, uşaq birdən-birə dəyişib. Münasibətlərin inkişafı prosesini, bu gün baş verənlərin səbəbini dünəndə, yaxın zamanlarda deyil, əvvəlki mərhələlərdə axtarmaq lazımdır.

Ailədə uşaqlarla aparılan ünsiyyət, psixoloji yaxınlıq onların həyatda uğur qazanmalarına, düzgün münasibət qurmalarına, özünəhörmət hissinə təkan verir. Uşağın davranış motivlərini araşdırıb təhlil etməyə çalışan valideyn onun fikirlərinə diqqətlə qulaq asmalı, suallarına təmkinlə cavab verməlidir. Beləliklə, yaşlılarla və həmyaşıdları ilə ünsiyyət şəraitində uşağın xarakteri formalaşmağa başlayır. Ailədaxili münasibətlər kontekstində valideyn-uşaq münasibətləri tarixən milli xüsusiyyətlərin tələblərinə uyğun olaraq, eyni zamanda valideynlərin özlərinin düşüncə tərzinə, fərdi xüsusiyyətlərinə uyğun əsaslar üzərində qurulur. Uşaqların şəxsiyyətinin formalaşmasında və psixi inkişafında aparıcı rol oynayan ünsiyyət tələbatı da məhz bu münasibətlərin gedişində bu və ya digər dərəcədə ödənilir. Qeyd etdiyimiz kimi sağlam, düzgün münasibət sağlam, formalaşmış gələcəyə yol açır. Təəssüflə qeyd etmək lazımdır ki, bəzi vaxtlarda ailədaxili münasibətlərin (ər-arvad) nizamsızlığı uşaqların taleyində neqativ izlər buraxır.

Uşaqlarla rəftar və davranışı zamanı valideynlər bəzi vaxtlarda birtərəfli iştirak edirlər. valideynlərdən birinin uşağı çox əzizləməsi, yaxud tez-tez onun üçün "havadarlıq" etməsi, "hələ uşaqdır eyib etməz düzələr" və s. bu kimi mühafizəkar mövqeləri uşaqların tərbiyəsində birtərəfli ölçülərə gətirib çıxarır. Çünki ailənin tərbiyə imkanları valideynlərin və uşaqların qarşılıqlı əlaqəsi ilə müəyyən olunur. Bu kontekstdə ailədə intizam tərbiyəsi vacibdir. Qeyd etdiyimiz kimi ailələrdə çox vaxt uşaqların həddindən artıq əzizlənməsi buna mane olur. Uşağını kor-koranə sevən ata, yaxud ana onun bütün tələblərini yerinə yetirməyə çalışır. Hətta kiçik yaşlı uşaqlar söyüş söyəndə belə valideyn onu müdafiə edir. Azərbaycan maarifçisi, satirik şair M.Ə.Sabirin "Uşaqlar" satirası bu xüsusda diqqəti cəlb edir.

"Ay başı daşdı kişi, dinmə uşaqdır uşağım!
Nə ədəb vaxtıdı, qoy söysün, ufaqdır uşağım!
... Bir söyüşdən ötəri etmə əziyyət balama,
Göyərib coşma, utan, qonşuları yığma dama,
Sənə söydükləri getsin başı batmış atama,
Qışqırıb bağrını da yarma, uşaqdır uşağım!
Nə ədəb vaxtıdı, qoy söysün, ufaqdır uşağım!" (4, s. 114)

Göründüyü kimi ailə münasibətləri ailəyə məxsus tipoloji xüsusiyyətləri özündə əks etdirir. Professor Ə.Ə.Bayramov və Ə.Ə.Əlizadə ailənin tərbiyə mühitini şərtləndirən amilləri iki tipə ayırırlar: "Ana-ata, ata-uşaqlar, bacı-qardaşlar arasındakı münasibətlər, valideynlərin uşaqlara

münasibətləri, onların şəxsi keyfiyyətləri və s. birinci tip amillər sırasına daxildir. Ailənin maddi vəziyyətini, mənzil şəraitini, strukturunu və s. isə ikinci tip amillər sırasına aid etmək olar" (1, s. 512).

Doğrudan da, ailədə ata-ana əsas sima olduqları üçün onların arasında yaranmış münasibət uşaqların bu günü və gələcəyi üçün istiqamətləndiricidir. Xüsusən də, Azərbaycan ailəsində bu münasibətlər daha çox diqqəti cəlb edir. Özünəməxsus spesifik çalarları ilə xarakterizə olunan Azərbaycan ailəsi kökə, nəslə, uşağa bağlı olduğu üçün həmişə bütövlüyündə, ülviliyində seçimli olub. Ər və arvad arasındakı münasibətin məzmununu qarşılıqlı hörmət və qayğı, səmimiyyət və mehribanlıq təşkil edir. Odur ki, bir-birinin nüfuzunu saxlamaq, uşaqların tərbiyəsində vahid tələbləri gözləmək ailədaxili münasibətlərdə əsas faktordur.

İnsan anadan olduğu gündən ömrünün sonuna kimi tərbiyəvi təsirlərin əhatəsində yaşayır. Bunun üçün valideynlərin ilk gündən bu məsələlərə məsuliyyətlə yanaşmaları zəruridir. Çağanın dünyaya gəlişi onun vasitəsiz-emosional ünsiyyəti ilə xarakterizə olunur ki, bunun əsasında da valideyn-ana durur. Professor Ə.Ə.Əlizadə qeyd edir ki, "Uşaqlar doğulduqları gündən özünəməxsus sosial-psixoloji kontikiuma, yəni ailə mühitinə düşür... Müəyyən edilmişdir ki, dilsiz-ağızsız çağa üç aylıq olanda mədəniyyət onun bütün həyatına nüfuz edir" (2 , 281). Bu kontikiumda, uşaqların psixi inkişafında, tərbiyə və təlimində valideynlərin xüsusilə də, ananın rolu önəmlidir. M.T.Sidqi bu xüsusda yazırdı: "Uşağın əvvəlinci müəllimi bitəbii validəsidir. Burada ananın öhdəsinə daha çox məsuliyyət düşür. Çünki uşağa birinci tərbiyə və təlim verən anadır" (7, s. 10).

Psixoloji tədqiqatlardan aydın olmuşdur ki, uşağın sağlam psixoloji inkişafa malik olması üçün onun ana ilə ünsiyyəti (emosional ünsiyyət), xüsusən də, ilk üç ildə əhəmiyyət kəsb edir. Uşağın psixoloji ehtiyacını sevgi, məhəbbət, qayğı, ülvi hisslərin məcmusu kimi qiymətləndirmək mümkündür. Bu dövrlərdə əmək və oyun fəaliyyətinin inkişafı da uşaqların psixikasına müsbət təsir göstərir.

Ailədaxili münasibətlərdə ana ilə bahəm atanın rolu da önəmlidir. Onları ailə tərbiyəsinin qoşa qanadları adlandırırlar. Azərbaycan ailəsində həm ata, həm də ana uşaqlar üçün yaşayır. Deyimlərimizdəki "Dörd göz uşaq üçündür", "Anasız uşaq evdə xar olar, atasız uşaq çöldə" və s. bu kimi kəlmələrin fəlsəfi, psixoloji kökləri aydındır.

Bir məsələni xüsusi vurğulamaq lazımdır ki, valideynlər uşaqların ayrı-ayrı yaş dövrlərinin qanunauyğunluqlarını bilməli və onlarla rəftar və davranışlarında cinsi tərbiyənin xüsusiyyətlərinə də diqqət yetirməlidirlər.

Hər yaş dövrünün özünəməxsus xüsusiyyətləri var. Problemlə bağlı xüsusilə böhranlı yaş dövrlərində bir sıra cəhətlər üzə çıxır. Bunlar tərbiyə işi üçün vacibdir. Digər tərəfdən Azərbaycan ailəsi üçün xüsusi aktuallıq kəsb edən cinsi tərbiyə və cinsi fərqlərin psixologiyasının nəzərə alınması şəxsiyyətin formalaşmasında vacib məsələdir. Cinsi tərbiyənin psixoloji aspektlərini geniş təhlil edən professor Ə.Ə.Əlizadə bu məsələlərin kökünü lap uşaqlıqdan başlanmasını vurğulayır. Oğlan, yaxud qız uşaqları ilə ünsiyyət, rəftar və davranış onların gələcəkdə kişi, yaxud qadınlıq etalonlarına necə yiyələnmələrinə zəmin yaradır. Uşaq adlanan varlıq doğulduğu ilk gündən etibarən yüksək hissiyyata malik olur. Bu hissiyyat onların ilk anlarındakı davranışından görünür.

Ailədə uşaqların mənəvi-psixoloji inkişafının əsas göstəricilərindən biri də onların idrak fəallığının inkişafıdır ki, bu da zamanının tələbidir. Artan informasiyalar, siyasi və sosial-iqtisadi həyatdakı irəliləyişlər uşaqların istedad və zehin qabiliyyətlərinin genişlənməsi məqsədini qarşıya qoyur. Zehni, intellektual inkişaf psixoloji prosesdir. Bu prosesin anadangəlmə və irsiyyətlə bağlılığı fikri ilə yanaşı alimlər qeyd edirlər ki, sağlam psixoloji

mühit və şəraitin yaradılmasıdır. Bu mənada müasir dövrdə valideynlərin pedaqoji savadı və mədəniyyətinin yüksəldilməsi vacibdir. Xüsusilə də, anaların savadlı olması övlad tərbiyəsində və ailədaxili münasibətlərin düzgün qurulmasında zəruridir. Ailədaxili münasibətlər, ailənin psixoloji iqlimi, "ər-arvad", "valideyn-uşaq" və "uşaq-uşaq" münasibətləri ailə tərbiyəsinin əsaslarıdır. Çünki ailədaxili və onun ətrafdakı psixoloji iqlim şəxsiyyətin formalaşmasında mühüm əhəmiyyət kəsb edir və şəxsiyyətlərarası münasibətlərin özünəməxsus sahəsini təşkil edir

**Məqalənin aktuallığı.** Müasir dövrdə ailə və ailədaxili münasibətlərin uşaqların şəxsiyyət kimi formalaşmasında əhəmiyyət daşıması aktuallığı ilə seçimlidir. Ailə uşaqların mənəvi hisslərə yiyələnmələrinin, sosial davranış normalarını mənimsəmələrinin mənbəyidir.

**Məqalənin elmi yeniliyi.** Ailə psixologiyası və ailədaxili münasibətlər geniş təhlil olunmuş və münasibətlər sferasında valideyn-övlad ünsiyyəti məsələləri sistemli şəkildə araşdırılmışdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Ali məktəb tələbələrinə mühazirələr zamanı, kurslarda seminarların təşkilində və ailə mövzuları ilə bağlı tədqiqatlarda istifadə etmək konteksində əhəmiyyət kəsb edir.

## Ədəbiyyat

1. Əlizadə Ə.Ə. Bayramov Ə.S. Psixologiya. Bakı, 2002.
2. Əlizadə Ə.Ə. Azərbaycan etnopsixologiyasına giriş. Bakı, 2003.
3. Əlizadə Ə.Ə. Abbasov A.N. Ailə. Bakı, 1989.
4. Əlizadə Ə.Ə. Qadın psixologiyası. Bakı, 2015.
5. Çələbiyev N.Z. Ailə psixologiyası. Bakı, 2015.
6. Rzayeva N.T. Azərbaycan maarifçiliyinin psixoloji konsepsiyası. Psixol.üz.f.dok. dissertasiyası. Bakı, 2005.
7. Sidqi M. T. Seçilmiş pedaqoji əsərləri. Bakı, 1967.
8. Репина Г.А. Общение детей в детском саду и семье. М., 1990.

**Н. Рзаева**

## Внутрисемейные отношение в Азербайджанской семье: общение между родителями и детьми

## Резюме

Внутрисемейные отношении в семье являются ведущей силой в психологии азербайджанского народа. Отношения между родителями и детьми составляет основы семейного воспитания. Правильное построение этих отношений, внутрисемейный психологический климат берутся за основы в формировании личности и составляет особенную область межличностных отношений.

**N. Rzayeva**

## The issues of interpersonal relationship in the Azerbaijani family: parent-child relationship

## Summary

Interpersonal relationship in the family is the basic force in the psychology of the Azerbaijani nation. Parent-child relationship is the foundation of family education. Proper building of this relationship, as well as psychological climate in the family are assumed as a basis in a persons formation and is a special area of interpersonal relationship.

**Redaksiyaya daxil olub:** 30.09.2019